

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 190 (21.091)

4 oktyabr 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərinə gəldi.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Xırdalan şəhərindəki abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

* * *

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərində Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib.

Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı ulu öndərin həyatının və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxdı. Sonra Prezident İlham Əliyev Abşeron rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Sonda xatirə şəkli çəkdirildi.

* * *

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərində Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında aparılan yenidənqurma işləri ilə tanış olub, Xırdalan şəhərində yaradılan "Park Abşeron" əyləncə mərkəzinin, Xırdalan şəhərində musiqi məktəbinin, şahmat məktəbinin, Abşeron rayonunun Masazır qəsəbəsində inşa olunan stadionun açılışlarında iştirak edib.



## Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə:

Abbasova Almas Mahmud qızına
Abdullayeva Dezdemona Seyran qızına
Allahverdiyeva Aidə Məhərrəm qızına
Allahverdiyeva Fatma Həsən qızına
Babayeva Zemfira Nurəddin qızına
Cəfərov Kamran Cəfər oğluna
Ələkbərova Süreyya Məmməd qızına
Əliyeva Nəzirə İsmayıl qızına
Həsənova Mehriban Vəli qızına
Zeynalov İman Zeynal oğluna
Zeynalova Xumar Kərim qızına – **"Əməkdar müəllim"** fəxri adı;

İsmayılov Kamaləddin Nurəddin oğluna – **"Əməkdar bədən tərbiyəsi və idman xadimi"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 3 oktyabr 2014-cü il*

## Naxçıvanşünaslıq Mərkəzində növbəti açıq dərs

***Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində Naxçıvan Dövlət Universitetinin tələbələri üçün növbəti açıq dərs keçilib.***

Əvvəlcə mərkəzin elmi katibi Emin Məmmədov tələbələrə mərkəz haqqında məlumat verərək bildirib ki, 90 il bundan əvvəl yaradılan Naxçıvan Muxtar Respublikası çətin, mürəkkəb, eyni zamanda şərəfli inkişaf yolu keçib, milli istiqlaliyyət yolunda Naxçıvanda cəsarətli addımlar atılıb. Bu gün də Naxçıvan Muxtar Respublikası milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olmaqla ölkəmizin iqtisadi qüdrətinin artırılmasına, tarixinin öyrənilməsinə və elmi potensialının gücləndirilməsinə dəyərli töhfələr verir. Muxtar respublikada inkişaf və tərəqqi dövrü kimi səciyyələnən son illərdə Naxçıvan tarixinin öyrənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.

Emin Məmmədov qeyd edib ki, Azərbaycanşünaslığın üzvi tərkib hissəsi olan Naxçıvanşünaslığa dair irsin, xüsusilə Naxçıvan Muxtar Respublikasının tarixinin, elminin, ədəbi mühitinin, incəsənətinin, təbii sərvətləri və mədəniyyətinin, habelə Naxçıvanın görkəmli şəxsiyyətlərinin həyatı və fəaliyyətinin öyrənilməsi, təbliğ olunması Naxçıvanşünaslıq Mərkəzinin əsas fəaliyyət istiqamətidir. Naxçıvanşünaslıq Mərkəzi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 17 fevral tarixli Sərəncamı ilə yaradılıb. Mərkəz, onun kitabxanası və arxivi ən müasir informasiya avadanlıq və daşıyıcıları ilə təmin olunub, elektron kitabxana və elektron arxiv yaradılıb.

Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid universitetdə "tarix" ixtisasının tədris planına "Naxçıvanşünaslıq" fənninin də əlavə olunduğunu qeyd edib. Prorektor bildirib ki, burada yaradılan şərait Naxçıvanşünaslıq Mərkəzi ilə elm, tədqiqat və təhsil müəssisələri arasında səmərəli əməkdaşlığın qurulmasında, elmi-tədqiqat işlərinin aparılmasında, yeni elmi istiqamətlərin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır.

Açıq dərsdə Surə Seyid "Naxçıvanda mətbuatın inkişaf tarixi" mövzusunda məruzə edib.

Açıq dərsin sonunda tələbələr Naxçıvanşünaslıq Mərkəzi ilə tanış olublar, onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin tələbələri üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində açıq dərslər həftədə iki dəfə keçiləcək və bu ilin dekabr ayında başa çatacaq.

**Mina QASIMOVA**

## Davamlı iqtisadi yüksəliş həyat keyfiyyətini artırır

***İqtisadi inkişafın mühüm göstəricilərindən biri olan sabit iqtisadi artıma nail olunması ölkədə və regionda mövcud bütün istehsal və əmək resurslarının səmərəli iqtisadi dövriyyəyə cəlb olunması və çoxşaxəliliyin təmin edilməsi ilə bağlıdır.***

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın diversifikasiyası və özəl sektora arxalanan stabil iqtisadi artım tempi əldə edilmişdir. Bu sabitliyin ən böyük bəhrəsi isə, şübhəsiz, yalnız rəqəmlərlə ifadə olunan kəmiyyət göstəriciləri deyil, əhalinin gündən-günə yaxşılaşan həyat şəraiti, adambaşına düşən gəlir, artan istehlak xərcləri və xarici ticarət dövriyyəsi, rabitə xərclərinin çoxalması, aktiv bank hesablarının, müxtəlif növ sığorta müqavilələrinin sayının artması və turizm səyahətlərindəki fəallıq kimi sahələrdə açıq görünür.

Təkcə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə 2014-cü ilin ilk səkkiz ayının nəticələrinə nəzər saldıqda istehsal olunmuş 1 milyard 417 milyon 984 min 300 manat həcmində Ümumi Daxili Məhsulun tərkibində sənaye və kənd təsərrüfatı, tikinti kimi aparıcı sahələrlə yanaşı, həmin sahələrdə də sabit dinamikalı inkişaf templərini görmək mümkündür. Artım tempinə görə diqqətçəkən sahələr arasında kreditləşmə, sığorta daxilolmaları və kənd təsərrüfatı məhsulu istehsalını göstərmək mümkündür. Belə ki, bu dövrdə muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 37 milyon 17 min manatdan çox həcmdə kreditlər verilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 26,4 faiz çoxdur. Bəhs olunan dövrdə muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 2013-cü ilin yanvar-avqust aylarındakı göstərici ilə müqayisədə 13,1 faiz artaraq 3 milyon 824 min 400 manat, kənd təsərrüfatı məhsulunun həcmi isə müqayisə olunan dövr üçün 8,3 faiz artaraq 232 milyon 99 min manat olmuşdur. Naxçıvanda ixracyönümlü iqtisadiyyatın yaradılması istiqamətində də görülən məqsədyönlü işlər bəhrəsini verməkdədir. Belə ki, muxtar respublikada ixracın həcmi son bir il ərzində 5,2 faiz artaraq 259 milyon ABŞ dollarını ötmüş və xarici ticarət üzrə 185 milyon ABŞ dollarına yaxın həcmdə müsbət saldo yaranmışdır. Bütün bunlar isə əhali gəlirlərinin artması ilə müşayiət olunaraq iqtisadi artımın keyfiyyət göstəricilərini özündə əks etdirir.

**Əli CABBAROV**

***Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin keçirdiyi müşavirədə ümumtəhsil məktəblərinin kitabxanalarında görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib.***

## Görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub



Mövzu ilə bağlı məruzə edən təhsil naziri Piri Nağıyev bildirib ki, bu gün muxtar respublikamızda kitabxana şəbəkələrinin genişləndirilməsi, kitabxanaların yeni ədəbiyyatlarla, informasiya texnologiyaları ilə zənginləşdirilməsi daim diqqətdə saxlanılan məsələlərdəndir. Belə ki, 2005-ci ildən etibarən ümumtəhsil məktəblərinə 2 milyon 7 min 482 nüsxə dərslik verilib. Onların 254 min nüsxəsi 2014-cü ilin avqust-sentyabr aylarında gətirilib. Bununla yanaşı, ümumtəhsil məktəblərinin kitabxanalarına 620 min 117 nüsxə latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyatlar verilib.

Nazir bildirib ki, xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual mənəvi potensialının artırılmasında kitabxanaların üzərinə mühüm vəzifələr düşür. Qeyd olunan vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsinin təmin olunması üçün muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində ümumtəhsil məktəblərinin kitabxanalarında lazımi şərait yaradılıb, məktəb kitabxanaları kompüterlər, hər cür maddi-texniki baza və əyani vəsaitlərlə təmin olunublar.

Qeyd olunub ki, öz işini günün tələbləri səviyyəsində qura bilən ümumtəhsil məktəblərinin kitabxanaları şagirdlər arasında mütaliə vərdişləri aşılayır, məktəbin pedaqoji kollektivinə elmi, pedaqoji, ictimai, publisist və metodik təcrübə sahəsində xidmətlər göstərirlər. Bunun üçün, ilk növbədə, kitabxanaya daxil olan bütün dərslik, elmi-metodik, pedaqoji, psixoloji, ictimai-siyasi və tədrisə aid digər ədəbiyyatları fondun qeydiyyatına alır və komplektləşdirirlər.

"Lakin təəssüf hissi ilə qeyd etməliyəm ki, heç də bütün kitabxanalarda ədəbiyyatların uçota alınması və qorunmasına lazımi diqqət yetirilmir", – deyən təhsil naziri tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, əvvəlki tədris illərində aparılmış monitorinqlər nəticəsində bəzi tədris müəssisələrində ədəbiyyatların dəqiq uçotunun aparılmaması, yararsız hala düşmüş dərslik və bədii ədəbiyyatların bərpası qayğısına qalınmaması hallarına rast gəlinib.

Vurğulanıb ki, insanın kamilləşməsində, yüksək keyfiyyətlərə yiyələnməsində mütaliənin böyük rolu vardır. Müasir dövrün məktəblisinin maraq dairəsi əvvəlki dövrlərə nisbətən daha sürətlə dəyişir və inkişaf edir. Bugünkü elmi-texniki inkişaf şagirdlərə əsas verir ki, onlar kompüterlərdən, elektron lövhələrdən və sairdən istifadə etsinlər. Bu yeniləşmə şagirdləri televiziya verilişlərinə, videofilmlərə baxmağa və kompüter oyunları ilə məşğul olmağa sövq edir. Lakin mütaliənin uşaqlarda hafizə və diqqəti inkişaf etdirdiyini, onlara baş verən hadisələrə düşüncə ilə yanaşmağı öyrətdiyini bilən kitabxanaçılar bütün imkanlardan istifadə edərək şagirdlərdə mütaliə mədəniyyətini formalaşdırmağa çalışırlar.

Diqqətə çatdırılıb ki, hər ayın sonuncu həftəsinin cümə günü ümumtəhsil məktəblərində "Kitabxana günü" elan olunub. Qabaqcıl kitabxana işçiləri ay ərzində həmin günün qeyd olunması üçün hazırlıq işləri həyata keçirir və məktəbdə müəyyən kitabların müzakirəsini, görkəmli dövlət xadimlərinin həyatına həsr edilmiş ədəbi-bədii gecələrin və viktorinaların keçirilməsini təşkil edirlər. Əfsuslar olsun ki, bəzi məktəblərimizdə bu prosesə laqeyd münasibət bəslənilir, həmin gün üçün heç bir tədbir keçirilmir və ya sadəcə, iş planları tərtib edilir. Şəhər və rayon Təhsil şöbələri qeyd olunan məsələlərə diqqəti artırmalı, sinif rəhbərləri, ədəbiyyat müəllimləri və məktəb rəhbərlərinin kitabxana ilə əlaqələrinin gücləndirilməsinə çalışmalıdırlar.

Məruzə ətrafında müzakirələrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin direktoru Şahin Əliyarovun, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi Kitabxanasının direktoru Nuridə Kəngərlinin, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanovanın, Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru, filologiya üzrə fəlsəfə doktoru Aypara Behbudovanın çıxışları olub.

**Muxtar MƏMMƏDOV**

# Müşavirədə qarşıya qoyulan vəzifələr uğurla icra edilir

***Sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikasında əkinəyararlı torpaqlardan istifadə vəziyyəti müzakirə edilmişdir. Müşavirədən ötən müddət ərzində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlər, görülməkdə olan işlər barədə bəzi aidiyyəti qurumlarla əlaqə saxladıq, təcrübəli təsərrüfatçıların fikirlərini öyrəndik.***

***İntizar Həziyev – Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin şöbə müdiri:***

– İlk olaraq məlumat üçün bildirim ki, muxtar respublika üzrə şoranlaşmaqda olan əkin sahələri 1698 hektar, qrunt sularının üzə çıxması nəticəsində çəmənləşən əkin sahələri 5635 hektar, şoranlaşan örüş sahələri isə 2434 hektardır. Şoranlaşmaqda olan əkin sahəsinin 806 hektarı Sədərək, 187 hektarı Şərur, 124 hektarı Kəngərli, 66 hektarı Culfa, 94 hektarı Babək rayonlarının, 421 hektarı isə Naxçıvan şəhərinin ərazisindədir. Çəmənləşən əkin sahəsinin 112 hektarı Sədərək, 3073 hektarı Şərur, 1117 hektarı Kəngərli, 572 hektarı Culfa, 34 hektarı Ordubad, 690 hektarı Babək rayonlarının, 37 hektarı isə Naxçıvan şəhərinin payına düşür. 2434 hektar şoranlaşmış örüş sahəsinin 2301 hektarı Sədərək, 133 hektarı isə Şərur rayonunun ərazisindədir. Bu isə, təbii ki, kənd təsərrüfatına yararlı torpaq sahələrinin azalmasına gətirib çıxarmışdır. Bunun da bir neçə səbəbi var. Səbəblərdən biri dağ və dağətəyi zonalarda torpaqların eroziyaya uğraması, düzən suvarılan zonalarda isə onların şoranlaşması və bunlara qarşı müvafiq tədbirlərin vaxtında və lazımınca aparılmamasıdır. Odur ki, komitə tərəfindən Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin mütəxəssislərinin, müvafiq rayon icra hakimiyyəti orqanlarının və kənd inzibati ərazi dairələri üzrə nümayəndələrin iştirakı ilə Sədərək, Şərur, Kəngərli, Culfa, Ordubad, Babək rayonlarında və Naxçıvan şəhərinin ərazisində olan eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqlar müəyyən edilərək xəritələşdirilmiş, onlardan gələcəkdə səmərəli istifadə olunması ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə hazırlanmış materiallar aidiyyəti orqanlara göndərilmişdir. Qeyd olunmalıdır ki, uzun illər yaz aylarında Araz çayının daşması nəticəsində bir sıra Arazboyu yaşayış məntəqələrinin ərazilərinə dolmuş sel suları və üzə çıxmış qrunt suları həmin ərazilərdəki əkinəyararlı torpaq sahələrinin şoranlaşmasına səbəb olmuşdur. Son illər həmin ərazilərdə aparılan sahilbərkitmə işləri bunun qarşısını almışdır. Lakin aparılan tədbirlərə baxmayaraq, həmin sahələrdə qrunt sularının üzdə olması görülən işlərə diqqətin daha da artırılmasını zəruri etmişdir. Əkin və örüş sahələrinin, həyətyanı torpaq sahələrinin şoranlaşması və çəmənləşməsinin əsas səbəbləri kimi qrunt sularının səhədən çıxarılması üçün istifadə olunan arxların, kanalların və drenajların vaxtlı-vaxtında təmizlənməməsini, suvarma normalarına düzgün əməl olunmamasını göstərmək olar. Bunun qarşısını almaq üçün qrunt sularının axıdılması üçün kanallar və açıqtipli drenaj şəbəkələri vaxtında təmizlənməlidir. Bütün bunlarla yanaşı, bir tərəfdən əhalinin, digər tərəfdən isə tikintinin və nəqliyyatın sürətlə artması bu günün reallığıdır. Bununla əlaqədar olaraq torpaq fondunun bu məqsədlər üçün intensiv istifadəsi nəticəsində əkinəyararlı torpaqlar, xüsusilə də suvarılan torpaqlar tikintilər üçün ayrılır. Eyni zamanda köhnə tikintilər sökülən zaman həmin tikintilərin yararsız tullantıları və yaşayış məntəqələrinin özlərində yaranmış məişət tullantıları nəzarətsiz olaraq örüş və əkin sahələrinə daşınır ki, bu da həmin sahələrin yararsız hala düşməsinə səbəb olur.

Ona görə də indiki mərhələdə torpaq ehtiyatlarını qoruyub saxlamaq və onlardan daha səmərəli istifadə etmək üçün komitə tərəfindən mövcud torpaq fondundan düzgün istifadə olunmasına diqqət artırılmışdır. Çünki kənd təsərrüfatına yararlı torpaqların sıradan çıxması bir qədər də sürətlənə bilər. Bu səbəbdən müşavirədən ötən müddət ərzində bu istiqamətdə həyata keçirilən tədbirlər daha da gücləndirilmişdir. Bunun üçün yerlərdə maarifləndirmə tədbirləri aparılır, torpaq mülkiyyətçilərinə torpaqlardan düzgün istifadə yolları göstərilir. Onlara izah olunur ki, sıradan çıxan torpaq sahəsi iqtisadiyyatımıza zərər vuran amillərdən biridir.

Muxtar respublika ərazisində əkinəyararlı torpaq sahələrinin məhdudluğunu nəzərə alaraq, komitənin kollektivi əkinəyararlı torpaq sahələrinin qorunub saxlanması və torpaqlardan səmərəli istifadə olunması sahəsindəki fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışır, müşavirədə komitə qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsi üçün təsirli tədbirlərin həyata keçirilməsini davam etdirir.

***Əsgər Həsənov – Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı:***

–Mədəni torpaqların münbitliyinin artması və ya aşağı düşməsi insanların öz fəaliyyəti ilə əlaqədardır. İnsanlar torpağa iki cür təsir edə bilirlər:

1. Torpaqdan sistemsiz istifadə edərək onu yorur, qüvvədən salır və şoranlaşdırır, münbitlik cəhətdən yararsız hala gətirir.

2. Torpaqdan səmərəli istifadə edərək onu zənginləşdirir və münbitliyini artırır.

Qeyd edilməlidir ki, torpağı qorumaq üçün təkcə şoranlaşma proseslərini müəyyən etməklə kifayətlənmək olmaz. Başlıca məsələ şoranlaşmanın əsas səbəblərini öyrənmək və onların qarşısını almaq üçün lazımi tədbirlər görməkdən ibarətdir.

Suvarılan torpaqların şoranlaşmasında böyük rol oynayan amillərdən biri aqrotexniki tədbirlərin vaxtında aparılmamasıdır. Muxtar respublikada kollektor-drenaj şəbəkələrini qaydaya salmaq və yeni şəbəkələr çəkmək tikinti-quruculuq tədbirlərinin tərkib hissəsinə çevrilmişdir. Bu da suvarılan və daha dəqiq desək, əkilən torpaqların sıradan çıxmasının, istifadəsiz qalmasının qarşısını almağa yönəldilən tədbirlərdir. Təəssüf ki, torpaq mülkiyyətçilərinin hamısı bu imkanlardan səmərəli istifadə etmirlər.

Bitkilərdən yüksək məhsul almaq üçün onları daim su, qidalı maddələr və bu kimi əsas inkişaf amilləri ilə təmin etmək lazımdır. Bu halda torpaq məhsulunun konsentrasiyası müəyyən həddən yüksək olmamalıdır.

Şoranlaşmış torpaqları yaxşılaşdırmaq üçün müxtəlif meliorasiya üsulları tətbiq etməklə fiziki, kimyəvi, bioloji və hidrotexniki tədbirləri əsas götürmək olar:

- şoranlaşmış torpaqları dərindən şumlamaq, dərindən yumşaltmaq kimi tədbirlər torpağın hava və sukeçirmə qabiliyyətini artırmaq üçün tətbiq edilir;
- şoranlaşmış torpaqları yaxşılaşdırıb istifadə etmək üçün torpağa üzvi gübrə vermək və becərilən bitkilərdən fitomeliorant kimi yararlanmaq lazımdır. Bu meliorasiya üsulu torpağın sukeçirmə qabiliyyətini yaxşılaşdırır və bitki qalıqlarının çürüməsinə, karbonat duzlarının əmələ gəlməsinə kömək edir;
- şoranlaşmış torpaqları yaxşılaşdırmaq üçün əsas metodlardan biri yuma və drenaj tədbirləridir. Bunlar hazırda əriyən duzları yuma yolu ilə torpaqdan çıxarmağın yeganə yoludur. Yuma və drenaj qurğuları qrunt sularının səviyyəsini endirməklə bərabər, təkrar şorlaşmanı xeyli zəiflədir.

Şoran və şorakət torpaqlarda ilkin əkin dövriyyəsi zamanı yonca, günəbaxan, şənbəllə bitkilərinin əkininin aparılması məqsədəuyğundur.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları şoranlaşmanın qarşısının alınması, torpaqların əkin dövriyyəsinə qaytarılması məqsədilə müşavirədən ötən dövr ərzində tərtib olunmuş tədbirlər planı əsasında yerlərdə olur, torpaq mülkiyyətçilərinə, sahibkarlara metodik köməkliklər göstərir, onlardan asılı olan məsələlərin həllinə yardımçı olurlar. Bu tədbirlər artıq intensiv xarakter alıb. Üzərimizə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün qarşıdakı dövrdə belə tədbirlər davam etdiriləcək.

***Tofiq Abutalıbov – təcrübəli təsərrüfatçı-aqronom, Nehrəm bələdiyyəsinin sədri:***

–Dünya binə olandan torpaq ən qiymətli sərvət kimi maddi nemətlər istehsalında başlıca vasitə rolunu oynamışdır. Bu, dövrümüzdə də belədir. Torpaq ona baş əyənin zəhmətinin əvəzini ödəməyə qadirdir. Bu səbəbdən də torpaqlarımızın qayğısına qalmağı bacarmalıyıq. Muxtar respublikamızda əkin sahələrinin əhalinin sayı ilə müqayisədə az olduğunu nəzərə alsaq, torpağa ikiqat qayğı göstərməliyik. Bu məsələ həmişə dövlətimizin diqqət mərkəzində olmuşdur. Lakin subyektiv səbəblər ucbatından torpaqların sıradan çıxması, əkinəyararsız hala düşməsi hamımızı düşündürməlidir. İlk növbədə, özümüzdən asılı olanlara biganə yanaşmamalıyıq. Unutmamalıyıq ki, biz torpağa necə qayğı göstəririksə, torpaq da bizə səxavətini o cür göstərəcək. Ali Məclisin Sədri çox düzgün olaraq müşavirədə bildirmişdir ki, muxtar respublikada əkinəyararlı torpaq sahələrinin məhdud olması onlardan səmərəli istifadənin vacibliyini ön plana çəkir. Bəzi hallarda kənd təsərrüfatına yararlı torpaqlar icarəyə verilərək, digər məqsədlər üçün istifadə olunaraq yararsız hala düşür. Yerli icra hakimiyyətləri əkinəyararlı torpaq sahələrindən digər məqsədlər üçün istifadəni aradan qaldırmalı, müəssisələrin, inzibati binaların, sosialtəyinatlı obyektlərin tikintisinin əkin üçün yararlı olmayan ərazilərdə aparılması təmin edilməlidir.

Müşavirədə səsləndirilənləri torpaqlarımızın sıradan çıxmasının qarşısının alınmasında həyəcan təbili hesab edirəm. Həmin müşavirədə çox məsələlərə aydınlıq gətirilmiş, qarşıda duran vəzifələr aidiyyəti təşkilatlara çatdırılmışdır. Bu vəzifələrin yerinə yetirilməsində hər birimiz fəal olmalıyıq.

**Hazırladı:**
**Muxtar MƏMMƏDOV**

***“Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının müxtəlif istehsal sahələrində istehsal edilən, “Badamlı”, “Bərəkət”, “Mirvari” və “Qızıl damla” əmtəə nişanları ilə satışa çıxarılan kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları, “Badamlı” təbii mineral süfrə suyu, meyvə nektarları, halva, un, müxtəlif çeşiddə çörək, makaron, ət və süd, eləcə də şirniyyat kimi sənaye məhsulları keyfiyyət göstəriciləri ilə seçilir, alıcılar tərəfindən rəğbətlə qarşılanır. Bazar iqtisadiyyatının tələblərinə uyğun keyfiyyətli məhsul istehsal etmək işin bir vacib sahəsidirsə, istehsal edilən məhsulların tələb olunan şəraitdə saxlanılması və ayrı-ayrı ticarət obyektlərinə vaxtında və keyfiyyətlə çatdırılması, istehlakçılara təqdim olunması isə işin bir-birini tamamlayan digər mühüm əhəmiyyətli sahəsidir. Bu mühüm əhəmiyyətli sahə diqqət mərkəzində saxlanılmış, 2010-cu ilin mart ayında Gəmiqaya “Bərəkət Bazarlama” Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlamışdır.***

# Gəmiqaya “Bərəkət Bazarlama” Məhdud Məsuliyyətli Cəmiyyətində xidmət günün tələbləri səviyyəsindədir

Marketinq və satış şöbələrinin fəaliyyət göstərdiyi müəssisəyə xaricdə təhsil almış və təcrübə keçmiş gənc mütəxəssislər cəlb olunmuşlar. Həmin mütəxəssislər daxili bazarın tələbatını öyrənir, yerli məhsulların tanıdılması məqsədilə təbliğat işləri aparırlar. Qida məhsullarının satış qiymətlərində endirim edilir, daha çox yerli məhsul alan müştərilərə hədiyyələr verilir. Gediş-gəliş çox olan ərazilərdə yerli məhsullardan ibarət səyyar sərgilər təşkil olunur. Xüsusilə isti yay aylarında soyuducu çanta ilə təmin olunmuş şirkətin nümayəndələri tərəfindən parklarda və ictimai nəqliyyatda dequstasiya (daddırma) tədbirləri həyata keçirilib ki, bu, yerli məhsula inamı artırıb. Nəticədə, qida məhsullarına olan tələbat da artıb. Gəmiqaya “Bərəkət Bazarlama” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən satışa çıxarılan qida məhsullarının və müəssisədə fəaliyyət göstərən “qaynar xətt” telefon nömrələrinin əks olunduğu lövhələr bütün ticarət obyektlərində alıcıların diqqətini cəlb edən guşələrdə asılmışdır. Yerli qida məhsulları ilə bağlı müəssisəyə daxil olan bütün telefon zəngləri və təkliflər diqqətlə araşdırılır. Qida məhsullarının bütün növlərinin ayrı-ayrılıqda satışına nəzarət olunur. Nəticələr müzakirə edilir, satışında azalma müşahidə olunan sahələr müəyyənləşdirilir və azalmanı doğuran səbəblər aradan qaldırılır.

“Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının qida qrupuna daxil olan sənaye müəssisələrində istehsal edilən yerli məhsulların keyfiyyətlə saxlanılması və ticarət obyektlərinə çatdırılmasına da əlverişli şərait yaradılmışdır. Naxçıvan şəhərində qida məhsullarını mənfi 15 dərəcəyədək saxlamaq imkanı olan soyuducu anbar istifadəyə verilmiş, ayrı-ayrı rayonlarda satış bazaları yaradılmışdır. Müəssisənin Naxçıvan şəhərində fəaliyyət göstərən mərkəzi bazasına daxil olan qida məhsulları müəssisənin balansındakı yük avtomobilləri ilə rayon mərkəzlərində yerləşən satış bazalarına daşınıb həftəlik ehtiyat yaradılır. “Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi müxtəlif çeşiddə çörəklər isə gündəlik olaraq Naxçıvan şəhərindən, ayrı-ayrı rayon mərkəzlərindən başlayaraq ucqar dağ və sərhəd kəndlərinədək bütün yaşayış məntəqələrində fəaliyyət göstərən ticarət obyektlərinə çatdırılır. Qida məhsullarının müəyyən olunmuş şəraitdə saxlanması üçün həmin ticarət obyektləri soyuducularla təmin edilmiş, qida məhsullarının soyuducularda saxlanmasına və düzülüşünə nəzarət məqsədilə xüsusi dizaynerlər qrupu yaradılmışdır.

Müəssisədə fəaliyyət göstərən satış şöbəsində də xidmət günün tələbləri səviyyəsində qurulmuş, muxtar respublikamızın şəhər və rayonları yerləşdiyi əraziyə uyğun olaraq 3 qrup üzrə komplektləşdirilmişdir. Naxçıvan-Babək-Şahbuz, Kəngərli-Şərur-Sədərək, Ordubad-Culfa bölgələri üzrə ticarət nümayəndələri təyin olunmuşdur ki, onlar da həmin rayonlar üzrə tələbatı öyrənib müəssisəyə sifarişlər verirlər. Qida məhsulları rayon bazaları vasitəsilə bütün ticarət obyektlərinə vaxtında çatdırılır. Xatırladaq ki, əvvəllər ucqar dağ və sərhəd kəndlərinə məhsullar ticarətçi tərəfindən alınıb sərnişin avtobuslarında aparılırdısa, indi bu problem də aradan qaldırılmışdır. Bu həm istehsalçı, həm istehlakçı, həm də ticarətçi üçün olduqca əlverişlidir. Çünki istehsalçı məhsulun satışına, istehlakçı keyfiyyətli və münasib qiymətə məhsul almağa, ticarətçi isə əlavə daşınma xərci çəkməməyə maraqlıdır.

**Kərəm HƏSƏNOV**

# Bioresurslar İnstitutunda yeni arpa və noxud sortları yetişdirilib

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu fəaliyyətə başladığı ilk illərdən muxtar respublikada dənli taxıl və paxlalı bitkilər üzrə yeni sortların alınmasına çalışıb. Bu məqsədlə 2004-2005-ci illərdə İCARDA-dan introduksiya məqsədilə Flip 03-115C genetik mənbələrindən alınmış noxud və IB-CB-WT pitomnikindən olan entry 119/N-H arpa nümunələri əldə edilib. Həmin nümunələrdən institutun Babək rayonunun Hacıvar kəndi yaxınlığında yerləşən təcrübə sahəsində kütləvi, Nəbatat bağının təcrübə sahəsində isə fərdi seçmə yolu ilə yeni sortların alınmasına nail olunub. Yaradılmış noxud və arpa sortları nümunələri Naxçıvan Muxtar Respublikasının yaranmasının 85 illiyinə həsr edilərək “Qaraca-85” (noxud) və “Qılçıqlı-85” (arpa) sortları adı altında Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasına təqdim edilmişdi. Uzun müddət respublikanın 8 rayonunda sınaqdan keçirilən bu nümunələr, nəhayət, bu il yüksək göstəricilərinə görə sort adını doğruldub, muxtar respublikada dənli taxıl və paxlalı bitkilər üzrə yeni sortların alınmasına patent və sertifikatlar verilib.

Hazırda sortların artırılması üçün təcrübə sahələrində əkinləri planlaşdırılıb, eyni zamanda nümunələri Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinə təqdim edilib.

**Xəbərlər şöbəsi**

*5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür*

# Müəllim adı ziyalılıq və mənəvi saflıq rəmzidir

YUNESKO-nun qərarına əsasən, 1966-cı ildən etibarən hər il oktyabrın 5-i “Beynəlxalq Müəllimlər Günü” kimi qeyd olunur.

Bəşər tarixinin hər bir mərhələsində cəmiyyətin tərəqqisi, bilavasitə, təhsilin inkişafından asılı olmuşdur. İnsan resurslarının, elm və texnologiyanın iqtisadi inkişafda həlledici amilə çevrildiyi müasir dünyamızda təhsilin rolu hər keçən gün daha da artmaqdadır.Təhsilin inkişafı isə yüksəkixtisaslı, peşəkar və təcrübəli müəllimlər ordusunun formalaşmasından asılıdır. Müəllim gənc nəslin mənəvi inkişafının memarıdır. Cəmiyyət ən qiymətli sərvəti olan uşaqları müəllimə etibar edir. Xalqın, dövlətin gələcəyini yetişdirmək kimi ali vəzifə müəllimlərin əsas fəaliyyət istiqamətini təşkil edir.

Azərbaycan xalqının təfəkküründə müəllim adı hər zaman ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunmuş, bu şərəfli peşə sahiblərinə xüsusi ehtiramla yanaşılmışdır. ***“Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram”***, – deyən ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə müəllimlərə böyük hörmətlə yanaşmış, onların əməyini yüksək qiymətləndirmişdir. Ulu öndərin təhsilə, müəllim əməyinə qayğıkeş münasibəti bu gün də ölkəmizdə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli təhsil islahatlarının bir hissəsini də ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edir. Ölkə başçısının imzaladığı sərəncama əsasən, hər il ölkəmizdə “Ən yaxşı müəllim” müsabiqəsi keçirilir, təhsilin inkişafında xidmətləri olan müəllimlər müxtəlif fəxri adlara layiq görülürlər.

Bu gün muxtar respublika müəllimləri də ölkəmizin inkişafına öz töhfələrini verirlər. Muxtar respublikada gənclərin maariflənməsi üçün yorulmadan çalışan müəllimlərin əməyinin qiymətləndirilməsi, onların hərtərəfli qayğı ilə əhatə olunması diqqət mərkəzindədir. Müəllim əməyinə verilən əsas qiymət həm də yüksək tədris şəraitinin yaradılması ilə ölçülür. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmiş, son 10 ildə şəhər, rayon və kəndlərimizdə 56 min 926 şagird yerlik 150-yə yaxın orta məktəb binası tikilib istifadəyə verilmiş, maddi-texniki baza xeyli gücləndirilmişdir. Hər il olduğu kimi, 2014-cü ildə də məktəb binalarının tikintisi, tədris şəraitinin müasir tələblər səviyyəsində qurulması diqqət mərkəzində saxlanılmışdır. Yeni dərs ilinin başlanması ərəfəsində Şərur şəhərində Şərur Texniki-Peşə və Sürücülük Məktəbinin, Babək rayonunda Qahab, Ordubad rayonunda Aşağı Əylis kənd tam orta məktəblərinin müasir binaları istifadəyə verilmişdir. Hazırda inşası davam etdirilən onlarla yeni məktəb binaları, eyni zamanda Kəngərli və Sədərək Rayon Təhsil şöbələri, eləcə də Kəngərli Rayon Şahmat Məktəbi üçün binalar “Muxtariyyət ili”nin quruculuq töhfələri kimi təhsil kollektivinin ixtiyarına veriləcəkdir.

Muxtar respublikada təhsil sahəsinə göstərilən qayğı təkcə infrastruktur yönümlü deyil. Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, məktəblərin dərs vəsaitləri, dərslik və bədii ədəbiyyat, informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunması da daim diqqət mərkəzində saxlanılır. Belə ki, son 9 ildə muxtar respublikanın təhsil müəssisələrinə 2 milyon 7 min 482 nüsxə dərslik, 620 min 117 nüsxə latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat verilmişdir. İnformasiya texnologiyalarının tədrisdə tətbiqi məqsədilə muxtar respublika üzrə hər 12 şagirdə 1 kompüter düşməklə ümumtəhsil məktəblərində 3 min 409 kompüter dəsti quraşdırılmış, onların 84 faizi internet şəbəkəsinə qoşulmuşdur. Bununla yanaşı, elektron təhsilin formalaşması və şagirdlərin informasiya cəmiyyətinə uyğunlaşması məqsədilə ümumtəhsil məktəblərində 600-ə yaxın elektron lövhə quraşdırılmışdır.

Muxtar respublikada təhsilə göstərilən diqqət və qayğı, tədrisin keyfiyyətinin yüksəldilməsi, ilk növbədə, ali məktəblərə qəbul imtahanlarında uğurlu nəticələrin qazanılmasını şərtləndirmişdir. 2013-2014-cü tədris ilində ümumtəhsil məktəblərini 3 min 993 şagird bitirmişdir. Məzunlardan 3 min 115 nəfəri ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarında iştirak etmək üçün sənəd vermiş, onlardan 1725-i tələbə adını qazanmışdır. Ali məktəblərə qəbul olunanlardan 347-si imtahanlarda 500-700 intervalında bal toplamışdır. Təbii ki, bu nailiyyətlərin qazanılmasında müəllimlərin əvəzsiz zəhməti və qayğıkeş əməyi də əsas rol oynamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müəllimlər gələcəyimiz olan gənclərin təhsil almasında, tərbiyə olunmasında xüsusi rol oynayır. Gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyulsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaq, uğurlu olacaqdır”.*** Bu gün muxtar respublikanın təhsil ocaqlarında çalışan hər bir müəllim qarşısında vətənpərvər, təhsilli gənclər yetişdirmək və cəmiyyət üçün faydalı fərdlər hazırlamaq prioritet vəzifə kimi müəyyənləşdirilmişdir. Pedaqoji kollektivlərin əsas fəaliyyət istiqamətini təşkil edən bu vəzifələrin icrası muxtar respublikada layiqincə yerinə yetirilir, müəllimlər tədris prosesini günün tələbləri səviyyəsində qururlar. Hər bir müəllim elmi-nəzəri hazırlığı, pedaqoji ustalığı, metodik cəhətdən kamilliyi, vətənpərvərliyi ilə seçilir, dövlətinə və xalqına sədaqətlə xidmət edir.

Muxtar respublikamızda pedaqoji kadrlara olan ehtiyacın ödənilməsi daim diqqət mərkəzində saxlanılır. 2005-ci ildən etibarən keçirilən təhsil yarmarkaları ümumtəhsil məktəblərində təhsilin keyfiyyət və kəmiyyətcə yaxşılaşmasına müsbət təsir göstərmişdir. Məktəblərin pedaqoji kadrlarla təminatının həyata keçirilməsinə xidmət edən təhsil yarmarkalarının təşkili sahəsində artıq xeyli təcrübə əldə olunmuşdur. 2014-cü il sentyabrın 4-də keçirilən növbəti təhsil yarmarkasında 108 gənc müəllimə muxtar respublikanın müxtəlif məktəblərində işləmək üçün göndərişlər verilmişdir. Bu, bir tərəfdən ucqar dağ kəndlərində məktəblərin ixtisaslı kadrlarla təminatı baxımından əhəmiyyətlidirsə, digər tərəfdən gənc müəllimlərin işlə təmin olunmasında mühüm amildir.

Bilikli, yüksək intellektual səviyyəyə malik vətənpərvər gənclər yetişdirmək kimi şərəfli işin öhdəsindən layiqincə gələn müəllimlərin əməyi muxtar respublikamızda hər zaman yüksək qiymətləndirilir, onlar fəxri adlar, orden və medallarla təltif olunurlar. Belə ki, son illər muxtar respublikamızın təhsil müəssisələrində çalışan müəllimlərdən 61-i “Azərbaycan Respublikasının əməkdar müəllimi”, 83-ü isə “Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi” fəxri adlarına layiq görülmüş, 56 müəllim “Tərəqqi” medalı ilə təltif olunmuşdur.

*Sosial statusundan, tutduğu vəzifədən asılı olmayaraq, hər bir insan cəmiyyətdəki mövqeyinə, şəxsiyyət kimi formalaşmasına, qazandığı biliklərinə görə məhz müəllimə borcludur. Müdriklərin fikrinə görə, “hər bir millətin tərəqqisi təhsillə, təhsilin tərəqqisi isə müəllimlərlə bağlıdır”. Ona görə də əsl müəllim bilik və bacarığını, qəlbinin hərarətini daim dövlətin və xalqın sabahı naminə ərməğan etməli, şagirdlərin vətənpərvər, intellektli gənclər kimi yetişməsi üçün səylə çalışmalıdır.*

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Dövlət Universitetində universitetin Azərbaycan Respublikası Təhsil Nazirliyinin məqsədli təqaüdünə layiq görülmüş tələbələri ilə görüş keçirilib.*

## Təhsil Nazirliyinin məqsədli təqaüdü veriləcək

Tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq Azərbaycanda, o cümlədən muxtar respublikada təhsil quruculuğu sahəsində qazanılan uğurlardan danışıb. Rektor Azərbaycan Respublikası təhsil nazirinin “Pedaqoji kadr hazırlığı aparılan ali təhsil müəssisələrinin müəllimlik ixtisaslarına yüksək balla qəbul olunmuş tələbələr üçün Təhsil Nazirliyinin məqsədli təqaüdünün təsis edilməsi barədə” 17 sentyabr 2014-cü il tarixli əmri ilə tədbir iştirakçılarını tanış edərək bildirib ki, əmrə əsasən, pedaqoji kadr hazırlayan ali məktəblərə qəbul imtahanlarında 500 və daha yüksək bal toplayan, ixtisas seçimində birinci və ya ikinci yerdə müəllimlik ixtisasını seçən 300 tələbə üçün 100 (yüz) manat məbləğində Təhsil Nazirliyinin məqsədli aylıq “Gələcəyin müəllimi təqaüdü” təsis edilib. Naxçıvan Dövlət Universitetinin yüksək bal toplayan və müəllimlik ixtisasını seçən 34 tələbəsi bu təqaüdə layiq görülüb. Rektor tələbələri bu münasibətlə təbrik edərək onlara təhsil sahəsində daha böyük nailiyyətlər qazanmağı arzulayıb.

Xarici dil müəllimliyi (ingilis dili) ixtisasına bu il 665 balla qəbul olunmuş Şəhla Salayeva tələbələr adından təhsildə fərqlənən gənclərə göstərilən dövlət qayğısına görə minnətdarlıq edib.

Universitetin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid tələbələri təbrik edərək universitetdə müxtəlif ictimai, sosial təşkilat və qurumlar, mədəniyyət və idman kollektivləri, elmi dərnək və kurslar haqqında məlumat verərək tələbələri universitet ictimai işlərində fəal olmağa çağırıb.

**Mehriban SULTAN**

# Milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının parlaq təcəssümü – Qurban bayramı

***Qurban bayramı İslam aləminin ən möhtəşəm və müqəddəs bayramıdır, dərin tarixə malikdir və hər il dünya müsəlmanları tərəfindən qeyd edilir. Üç səmavi dinin – Yəhudilik, Xristianlıq və İslamın hər üçündə də müxtəlif formada qurbanlıq mövcuddur. Lakin İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur.***

Uca Tanrıya məhəbbətin, Rəbbimizin öz bəndələrinə lütf və mərhəmətinin ifadəsi olan müqəddəs Qurban bayramı əsrlər boyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət etmişdir.

“Qurban” sözü lüğəti mənada “yaxınlaşmaq” deməkdir. Yəni qurban kəsən hər bir kəs bu əməli ilə Allaha yaxınlaşır. Allah dərgahında kəsilən qurbanlar ruhi dəyərlərin paklanmasında, insanların xeyirxah əməllər ətrafında birləşməsində mühüm rol oynayır.

Qurban İslam aləmində ən dəyərli bayramlardan biridir. Qurban bayramı eyni zamanda müsəlmanların Həcc ziyarəti mərasiminin də bir hissəsidir.

Yüksək insani keyfiyyətlərdən olan dostluğun, qardaşlığın, fədakarlığın cəmiyyətdə inkişafı və gələcək nəsillərə təlqin edilməsi üçün gözəl fürsət kimi dəyərləndirilən Qurban bayramı müsəlman təqviminin (Hicri-qəməri təqvimi) 12-ci ayı olan zilhiccə ayının 10-cu günü, Məkkəyə Həcc ziyarəti dövründə qurbanlıq heyvanların kəsilməsi şəklində qeyd olunur.

Qurban hicrətin ikinci ilində fərz qılınmışdır. “Qurani-Kərim”in “Kəvsər” surəsində deyilir: *“Rəbbin üçün namaz qıl və qurban kəs. De ki: “Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi – Allah üçündür”; “Biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər”.* Bundan əlavə, Peyğəmbərimiz buyurmuşdur ki, “bayram namazından sonra qurban kəsən ibadətini tamamlamış və müsəlmanların sünnəsinə (yoluna) əməl etmişdir”.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və tarixən islam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Digər müsəlman ölkələri kimi, Azərbaycanda da İslam dinindən irəli gələn vəzifələr yerinə yetirilir. Hər il yüzlərlə azərbaycanlı zəvvarın Həcc ziyarətinə yola düşməsi və bu ziyarətin vacib əməllərindən hesab olunan qurban kəsilməsinə əməl etməsi xalqımızın İslam dininə bağlılığını nümayiş etdirir. Milli-mənəvi dəyərlərə və ənənələrə ehtiramla yanaşılan Azərbaycanda Qurban bayramı da hər il böyük təntənə ilə qeyd olunur. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu müqəddəs bayramı yüksək qiymətləndirərək deyirdi: ***“Bütün müsəlmanların böyük təntənə ilə qeyd etdikləri Qurban bayramı insanın ən çətin məqamlarında düzgün mövqe seçmək, ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini təcəssüm etdirir”.***

Milli-mənəvi, islami dəyərlərin qorunması və təbliğinə ciddi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev insanlar arasında həmrəyliyin və saflaşmanın bərpa olunmasında bu bayramın rolunu yüksək qiymətləndirmişdir. Dövlət başçısının Qurban bayramı münasibətilə bu il Azərbaycan xalqına təbrikində deyilir: ***“Xeyirxahlığın, bərabərliyin, fədakarlığın simvolu olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə sülhə, əmin-amanlığa və dözümlülüyə dəvət edir. Cəmiyyətimizdə humanizm və qardaşlıq duyğularını daha da gücləndirən qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və böyük təntənə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, bu xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır”.***

Ölkəmizdə rəsmi olaraq iki gün qeyd olunan bu dostluq, qardaşlıq bayramının özünəməxsus qurban kəsmək şərtlərinə görə, qurban kəsən şəxs müsəlman olmalıdır. Qurban ibadəti qurbanlıq heyvanın Qurban bayramı günlərində qayda-qanunlara uyğun şəkildə şəxsən qurban sahibinin özü tərəfindən kəsilməsi və ya başqasına kəsdirməsi ilə yerinə yetirilmiş olur. Qurban üzrlü səbəbdən bayram günü kəsilməzsə, bayramın ikinci, üçüncü günü də kəsilə bilər. Ancaq unutmayaq ki, bu ayini günün birinci yarısı, yəni gün dönməzdən əvvəl yerinə yetirmək lazımdır.

Qurban kəsmək azad və varlı müsəlmanlara vacibdir. Fitrə verməyə məcbur olan kimsə qurban kəsər. Qaldığı evdən başqa bir evi olan kimsə də qurban kəsməlidir. Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib onun ətini imkansızlara, kasıblara paylamalıdır. Burada əsas məqsəd dindarlığa nail olmaqdır. Quranda yazılıb: *“Kəsdiyiniz qurbanlardan Allaha nə ət, nə onun qanı çatır, ancaq sizin dindarlığınız çatır”.* Səfərdə olanlara qurban kəsmək vacib deyildir. Nisab miqdarı malı olmayanların kəsdikləri qurban nafilədir.

Kasıb, imkanı olmayan ailələrin qurban kəsməsi vacib deyil. Bu yalnız buna imkanı olan adamların boynunda haqdır. Qurban əti satılmaz və ya satın alınmaz. Qurban yalnız paylanmaq üçün kəsilər ki, bu paylamanın da şərtləri vardır. Belə ki, kəsilmiş qurban üç yerə bölünür. Həmin üç hissənin biri ehtiyacı olan qonşulara, bir hissəsi qohum-əqrabaya paylanılır, digər bir hissəsi isə evdə saxlanılır. Quşlardan və ov heyvanlarından qurban kəsmək doğru deyil. Qurban kəsmək ibadəti həm də insanlara sərvətini ehtiyacı olanlarla paylaşmaq əxlaqını qazandırır.

Qurban bayramının ən gözəl xüsusiyyətlərindən biri də odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Qurban kəsmək və onu paylaşmaq sosial bərabərliyə ən gözəl nümunələrdən biridir. Bu bayramda hamı sevinməlidir: varlılar Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmətə və qayğıya görə.

Qurban bayramı müsəlman dünyasında əsl təntənəyə çevrilir, insanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılayır. Dinimizin təlqin etdiyi ədalət prinsipləri də Qurban bayramında özünü göstərir. Qurban bayramı insanların mənən saflaşması, onların daha sıx birləşməsi üçün bir vasitədir. Bu birlik ovqatı bizim hamımız – cəmiyyətimiz və dövlətimiz üçün olduqca mühüm amildir. Məhz birliyimiz, həmrəyliyimiz düşmənlərimizi məğlubiyyətə uğradacaq, böyük qələbəmizi təmin edəcəkdir.

**Vüqar BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi***

*"Poeziya! Ömrümün ən kövrək çağlarında ülvi duyğularımla məni görüşdürən ilahi qüvvə! Üzdə qayğılı, kədərli, düşüncəli, daxildə dağ çayı kimi üsyankar ömür dostum!*

*Şam kimi yanmışam bu ilahi qüvvəni qoruyub saxlamaq üçün. Səmasında dahi Nizami ulduzu yanan, Füzuli günəşi nur saçan, Məmməd Araz şeriyyəti səslənən bir dünyaya ucuz söz yığnağı gətirmək istəməmişəm..."*

*Poeziya haqqında nümunə gətirdiyimiz bu fikirlərin müəllifi qəlbi poetik hisslərlə, poetik duyğularla zəngin olan, 60 il əvvəl Şərur rayonunun Axura kəndində dünyaya göz açan, bu gün şair kimi tanınan, sevilən İbrahim Yusifoğludur.*

# İlahi qüvvənin işığında, yaxud həyati müşahidələrin poetik ifadəsi



"40 ildir, qələmlə külüng çalıram, hələ Fərhad arxı qazmamışam mən", – deyən İbrahim Yusifoğlunun etirafı səmimi qəbul olunmalıdır. Onun 1991-ci ildə "Yazıçı" nəşriyyatında nəşr olunan "Araz bayatıları" kitabından sonra "Bu həyat mənimlə yola getmədi", "Arxamca boylanan baxışların var", "Mənim inamımı güllələdilər", "Məni kövrəldəcək kədər qalmadı", "Sulara danışdım yuxularımı", "Dərdlərin belimi əydi, ay Vətən", "Gəlib çatdım 50 yaşa", "Seçilmiş əsərləri" (iki cilddə) şeir və poema kitabları kütləvi tirajla nəşr olunub oxuculara çatdırılmışdır. İbrahim Yusifoğlu, bütövlükdə, publisistik məqalələri də daxil olmaqla, 25 kitabın müəllifidir.

İbrahim Yusifoğlu ixtisasca müəllimdir və öz peşəsinə böyük məhəbbəti vardır. Bir çox qəzet və jurnallarda onlarla tanınmış müəllim və tərbiyəçilərin pedaqoji fəaliyyətlərini əks etdirən oçerk və zarisovkaları dərc edilmişdir. "Safdır, müqəddəsdir müəllim ömrü" (iki cilddə), "Günəş ömrü yaşayanlar", "Bir ömür sədası", "Mənalı ömrün yolçusu", "Şərəflə yaşanan ömür" kimi kitablarında müəllim əməyindən söz açır, bu peşənin nə qədər şərəfli olduğunu tərənnüm edir:

*Ən parlaq ulduzdu, nur saçan aydı,*
*Dalğalı dənizdi, ləpəli çaydı.*
*Ömrü ömürlərə paylanan paydı,*
*Safdı, müqəddəsdi müəllim ömrü.*

İbrahim Yusifoğlu yaradıcılığında xalqımızın başına gətirilən müsibətlər, soyqırımlar, qara yanvarlar qırmızı xətt kimi keçir. 1990-cı ilin Qanlı Yanvar hadisələri şairi o qədər narahat etmiş, dəhşətə gətirmişdir ki, o ağır günlərdə "Mənim inamımı güllələdilər" adlı ikihissəli poema yazmışdır:

*Qan etdilər gecə yarı,*
*Nə halına özgə, yadın.*
*Dəhşətə bax, ulu Tanrı,*
*Güllələndi uşaq, qadın.*

"Şanlı Qızıl Ordu"nun Bakıya gətirdiyi fəlakəti erməni quldurları mühasirədə qalmış Naxçıvan elində, xüsusən Sədərək kəndində təkrar etdilər. Torpaqlarımız uğrunda canlarından keçən şəhidlərimiz haqqında ürəkağrısı ilə iki kitab yazdı İbrahim Yusifoğlu. "Mənim inamımı güllələdilər" poetik naləndirsə, "Ölümü Tanrıdan gələnlər" publisistik ağrıdır, yanğıdır. Şairin qəlbində "qardaşlıq beşiyi" sovet elinə olan inamı güllələnsə də, müstəqil respublikamızın sabahına, xoşbəxt gələcəyinə ümidləri sonsuzdur:

*Axır ki ayırıb düşməni dostdan,*
*Tanıdın ən qəddar yağını, Vətən!*
*Qoynun uzaq olsun alovdan, oddan,*
*Yaşa müstəqillik çağını, Vətən!*

İbrahim Yusifoğlu yaradıcılığında Azərbaycanımızın ayrılmaz bir parçası olan Naxçıvan özünəməxsus tərzdə tərənnüm olunmuşdur. Bu gözəl diyarın qədimliyi, yeraltı və yerüstü sərvətləri, son 19 ildəki yüksəlişi sanki mahir bir rəssam fırçası ilə tabloya çevrilmişdir. Onun "Sulara danışdım yuxularımı", "Bu nəğməm sənədir, doğma Naxçıvan" adlı poemalarında muxtar respublikamız ürəkdolusu tərənnüm olunmuşdur. Bu bahar təravətli poeziya çələngində gül-çiçək ətri, bulaq sərinliyi, kənd adamlarının bayram əhval-ruhiyyəsi oxucunu riqqətə gətirir. Şairin əsərlərində ulu Tanrının gözəlliklərini əsirgəmədiyi qədim Naxçıvanın, onun sirli-soraqlı, əfsanəvi yurd yerləri, sözlü-söhbətli adamları canlanır.

Naxçıvan haqqında yazdığı poemada onun dünyanın ən gözəl diyarlarından biri olduğunu poetik dillə oxucuya çatdırır. Şairin qəhrəmanları böyütdüyü balaları, dərs dediyi şagirdləri, bir də "nənə-baba" deyən nəvələr, nəticələrdir. Bir çox şeirlərində körpə balaların babalarına və nənələrinə olan məhəbbətləri, hazırcavablıqları, ürəkaçıqlıqları, təbiətə vurğun olmaları və başqa psixoloji halları poetik bir dillə tərənnüm olunmuşdur. "Baba və Aynur", "Əncir çatır Araza", "Aydının cavabları", "Tənbəl olmaq istəmirəm", "Göy yerə zəng eyləyir", "Aynur və nənə" kimi şeirləri bu qəbildəndir.

İbrahim Yusifoğlunun uşaqlar üçün yazdığı şeirlərin çoxu bir bənddən (dörd misradan) ibarət olsa da, böyük məna bildirir, uşaqların yaddaşında qalır və tez qavranır:

*Babacan, bax dovşana,*
*Sığınıbdı yovşana.*
*Gözləyir ki, biz gedək,*
*Gəlib girsin bostana.*

Şairin uşaqlar üçün yazdığı "Ceyranbulaq nağılı", "Novruz adətlərimiz" kimi poemaları da sevilə-sevilə oxunur. Hələ mən İbrahim Yusifoğlunun məhəbbət, təbiət gözəllikləri və sair mövzularda yazdığı şeirlərdən söhbət aça bilmədim. Ümumiyyətlə, şair-publisistin yaradıcılığı çoxşaxəlidir. Təbii ki, bir qəzet məqaləsində onları tam əks etdirmək imkan xaricindədir.

*Şair-publisist İbrahim Yusifoğlunun bu günlərdə 60 yaşı tamam oldu. O, yaradıcılığının və ömrünün kamillik dövrünü yaşayır. 60 yaşlı şairi təbrik edir, ona cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.*

**Cəfər ƏLİYEV**

# "Divani-lüğət it-türk"də atalar sözləri" adlı yeni kitab çapdan çıxıb




***Naxçıvanda bir ifadə var. Bir insanla rastlaşıb ayrılanda, adətən, "sözün-savın" ifadəsi işlədilir. Bu deyimin "söz" hissəsini bilsəm də, "sav" hissəsinin nə olduğunu tapmağa çalışırdım. Bu gün bir dəyərli əsər oxudum və aydın oldu ki, "sav" ifadəsi "Divani-lüğət it-türk"də "ata sözü", "hikmətli fikir", "məsləhət" kimi ifadə olunur. Dilimizdə heç nə elə-belə olmurmuş. Oxuduğum yeni tədqiqat əsəri bu günlərdə çapdan çıxan "Divani-lüğət it-türk"də atalar sözləri" adlanır. Kitabın müəllifi Naxçıvan Özəl Universitetinin rektoru, professor İsmayıl Əliyevdir. Müəllifin özü tərəfindən "elmi iddiası olmayan kitab" kimi təqdim olunan əsər, əslində, dəyərli elmi tədqiqatın nəticəsidir.***

Görkəmli türkoloqların "Divani-lüğət it-türk" əsəri haqqında fikirləri ilə başlayan kitabda müəllif Mahmud Kaşğarlı və onun əsəri haqqında ətraflı bəhs edir. Türk dünyasının ən dəyərli kitablarından biri sayılan "Divani-lüğət it-türk"ə etnopedaqoji cəhətdən yanaşılır. Professor İsmayıl Əliyev yazır ki, Mahmud Kaşğarlının XI əsrdə qələmə aldığı sözlər içərisində Azərbaycanın Naxçıvan diyarında indi də eynilə və ya azacıq dəyişikliklə işlədilən sözlər, ifadələr vardır. Kitabın "Atalar sözləri nədir?" adlanan hissəsində türk folklorunda, türklərin sosial-mənəvi, əxlaqi-estetik görüşlərində atalar sözlərinin yerindən bəhs olunur. Qeyd edilir ki, atalar sözləri özündə keçmişi ehtiva etməklə məhdudlaşmır; onlar həm də xalqın bugünkü canlı səsi, çağırışıdır. Xalq bu gün zəruri, sabah isə gərəkli olanı qoruyub saxlayır. Müəllif atalar sözlərinin əsl dəyərlərinə layiq tədqiq olunmamasının fəsadlarından da bəhs edir və konseptual bir baxış ortaya qoyur. Vurğulanır ki, bu, atalar sözlərinin bir qisminin zaman keçdikcə unudulmasına, "atalar sözü" adı altında, əslində, atalar sözü olmayan çoxlu sayda ifadələrin toplanmasına, atalar sözlərinin mahiyyəti tam dərk olunmadığından, necə deyərlər, "külüngünü qapanın onların üstünə cummasına", bu sözlərin epik təfəkkürün məhsulu kimi tədqiqinin onların əsl mahiyyət və məqsədini kölgədə qoymasına səbəb olur. Müəllif yazır ki, milli-mənəvi dəyərlərin ən parlaq incilərindən olan atalar sözlərinin öyrənilməsi, onlara sahib çıxılması, bu hikmət və öyüd çeşməsinin qorunub saxlanması və gənc nəslə çatdırılması sahəsində etnopedaqoji tədqiqatların aparılması zəruridir. Bu tədqiqatların aparılması zamanı əsl atalar sözləri ciddi, nüfuzlu, təmkinli, müdrik ataların məhz tərbiyə məqsədilə, övladlarına, böyüyən nəslə olan öyüdləri kimi təhlil edilməlidir. Çünki xalqın qoruyub saxladığı bütün atalar sözləri onun yaşam tərzinin, milli mənəviyyatının güzgüsüdür.

Kitabın "Divani-lüğət it-türk"də olan atalar sözlərinin bəzi xüsusiyyətləri barədə" adlanan bölməsində bu sözlərin müxtəlif cəhətlərinə görə təsnifatı verilmişdir. Mühakimələrin mahiyyətinə, məcazi anlamlarına, inanc xarakterliliyinə və sair cəhətlərinə görə təsnifat aparılmış, təqdim edilən atalar sözləri həm "Divani-lüğət it-türk"ün yazıldığı ləhcədə, həm də müasir danışıq dilində təqdim edilmişdir.

Bizim üçün ən çox maraq doğuran bölmə "Divani-lüğət it-türk" "sav"ları və Naxçıvanda işlənən atalar sözləri" bölməsi oldu. İlk növbədə, "Divani-lüğət it-türk" əsərindəki 284 savdan bəhs edən və "sav" sözünün mənasına toxunan müəllif bu gün Naxçıvanda da bu ifadənin işlədildiyini yazır və buna aid konkret misallar göstərir. Tədqiqatçı müəyyənləşdirmişdir ki, əsərdə olan 284 savdan 117-si əsl atalar sözü kimi müasir dövrdə də Naxçıvanda ya olduğu kimi, ya da şəkilini dəyişmiş halda işlənir.

Kitabın axırıncı bölməsində "Divani-lüğət it-türk"dəki bütün atalar sözləri və onların tərcümələri verilmiş, həmin atalar sözlərindən indi də Naxçıvanda işlənən variantları qeyd edilmişdir. Ümumilikdə, bu hissədə 280 atalar sözü təqdim olunmuşdur.

Kitabın xalq hikməti, etimoloji, əxlaqi-tərbiyəvi məsələlərlə maraqlanan hər kəs üçün yararlı və maraqlı olacağını düşünürük.

**Elnur KƏLBİZADƏ**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2014-cü ilin sentyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 937 | 56,2 | 56,5 | 100,5 |
| 2. | Culfa rayonu | 1085 | 65,1 | 65,4 | 100,5 |
| 3. | Şahbuz rayonu | 407 | 24,4 | 24,5 | 100,4 |
| 4. | Kəngərli rayonu | 699 | 41,9 | 42,0 | 100,2 |
| 5. | Naxçıvan şəhəri | 3833 | 230,0 | 230,0 | 100,0 |
| 6. | Şərur rayonu | 2001 | 120,1 | 120,1 | 100,0 |
| 7. | Babək rayonu | 1933 | 116,0 | 116,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 300 | 18,0 | 18,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 25004 | 1500,2 | 1500,3 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **36199** | **2171,9** | **2172,8** | **100,0** |

**Qeyd:** Sentyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 36 milyon 199 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 171 min 900 manat olmuş, cəmi 2 milyon 172 min 800 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

# Aztəminatlı ailələrə başçəkmələr davam etdirilir

İnsanların sosial müdafiəsinin gücləndirilməsi muxtar respublikada dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. İqtisadiyyatda əldə olunmuş yüksək göstəricilər sosial sahənin inkişafına, xüsusilə əhalinin rifahının daha da yaxşılaşmasına stimul olur. Son illər muxtar respublikada aztəminatlı ailələrin sosial hüquqlarının təmin olunması, maddi və mənəvi tələbatlarının ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər daha intensiv xarakter alıb. Bununla yanaşı, ünvanlı sosial yardımların verilməsi aztəminatlı ailələrin sosial müdafiəsinin yaxşılaşdırılmasına böyük töhfələr verir. Bu yardımın təyinatı zamanı ünvanlılıq, şəffaflıq və ədalətlilik prinsiplərinə xüsusi diqqət yetirilir. Bundan əlavə, qeyd etmək lazımdır ki, mütəmadi olaraq aztəminatlı ailələrə baş çəkilir, belə ailələrin sosial problemlərinin aradan qaldırılması üçün lazımi tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhəri, B.Abbasov 100 ünvanında yaşayan aztəminatlı, II qrup əlil İlqar Əsgərovun ailəsinə baş çəkilib. Adıçəkilən təşkilatların əməkdaşları ailənin yaşayış vəziyyəti ilə maraqlanıb, ailə üzvlərini tibbi müayinədən keçirib, ailəyə məişət əşyası və ərzaq payı veriblər.

Xüsusi qayğıya ehtiyacı olan ailənin üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

### *İtmişdir*

Babək rayonunun Şəkərabad kəndində yaşamış Hacıyev Müseyib Rza oğlunun adına olan JN-0216 inventar nömrəli, 10312048 kodlu "Torpağa mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Şəkərabad kənd sakini Hacıyev Səyyad Müseyib oğlunun adına olan JN-217 inventar nömrəli, 10312048 kodlu "Torpağa mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Şəkərabad kəndində yaşamış Qurbanov Hidayət Qurban oğlunun adına olan JN-0218 inventar nömrəli, 10312048 kodlu "Torpağa mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 846